


Mənsur HƏSƏNZADƏ

**ÖMÜR YOLDAŞIMA YAZDIĞIM YEGANƏ ŞEİR**

Nə olub, yenə də qaşqabaqlısan?
Sözü kəlbətinlə ala bilmirəm.
Nədir qəbahətim, bəlkə, haqlısan?
Bir söz de, yadıma sala bilmirəm.

Sən belə olanda söz tutmur dilim,
Damağım, dodağım dadından çıxır.
Kağızdan, qələmdən soyuyur əlim,
Bütün bildiklərim yadımdan çıxır.

Bilmirəm nə üçün ögeydi sənə
Bu masa, bu qələm, bu kağız, bu şam?
Axı sən özün də yaxşı bilirsən,
Mən səni sevəndən şair olmuşam.

Könlüm səni tutdu, sənə güvəndi,
Sinə gərə bildim bəlalarıma.
Mən şeir yazıram, xanım əfəndi,
Sən layla deyirsən balalarıma.

Nə qədər gözəl vəsf eləsəm də,
Sənə sadiq olub tən qalacağam.
Nazlı gözəllərə xoş şeirlərim,
Sənə də bir ömür mən qalacağam.

Yarımsan, həyatım səninlə tamdır,
Ruhumun öz gözü, öz əli sənsən.
Bütün xanımların gözü anamdır,
Bütün qadınların gözəli sənsən!

**SEVDİM SƏNİ**

Qismətimə düşməmiş diləyimdə dayandın,
Eşqim tufan qopardı, küləyimdə dayandın,
Küçəmizdən keçəndə ürəyimdə dayandın,
Küçədə sevdim səni!

Sən göylərdən enməmiş bu kainat necəydi?
Yerdə maraqsızıydı, göydə həyat necəydi?
Mən sənə vurulanda, görən, saat neçəydi?
Neçədə sevdim səni?

Buza dönmüş hisslərim beləcə çıxdı qışdan,
Milyon arzu doğarmış, demə, bircə baxışdan,
Mənə elə gəlir ki, səni tanımamışdan
Öncə də sevdim səni!

Yaxşı bilir çiçəklər yazın xasiyyətini,
Tez sevənlər gec bilər qızın xasiyyətini,
Çoxu kəşf edəmmədi qızıl xasiyyətini,
"Külçədə" sevdim səni!

Səntək gülərüzlünü, şəni sevdirib mənə,
Saf eşqimə, ruhuma təni sevdirib mənə,
Qurban olum Allaha, səni sevdirib mənə,
Necə də sevdim səni!

## BU SEVGİ

Pöhrə-pöhrə, çiçək-çiçək bağ oldu,
Əvvəl-əvvəl bayram oldu bu sevgi.
Sonra dönüb saçlarımda ağ oldu,
Taleyimdə qaram oldu bu sevgi.

Sən gedəli ruhum düşkün hal aldı,
Hisslərim də ta şikəstdi, ta laldı,
Hə! Oyunu yaxşı qurdun, halaldı!
Axır mənə haram oldu bu sevgi.

Üzün, məkrin hər rənginə çevrilib,
O xoş səsin şər zənginə çevrilib.
Məhəbbətin xərçənginə çevrilib,
Sağalmayan yaram oldu bu sevgi

## MARAQLI YALAN

Gəlin bir maraqlı yalan danışım,
Məzmunu başqadı, forması başqa.
Mənim yalanımın ipi fərqlidi,
Mənim yalanımın torbası başqa.

“Yalan ayaq tutar, yeriməz” dedi,
Ən doğru yalanı babam danışdı.
O gündən bu günə babamqarışıq
Bütün yalançılar mənə tanışdı.

Daha mələklərin qəmlidi könlü,
Daha şeytanların çarxı yağlıdı.
Kim deyir, qırx gündü yalanın ömrü?
İndiki yalanlar qırxayaqlıdı.

İndi bir sualın cavabı mindi,
Həqiqət yalanın özündən keçir.
Dünyanın ən yekə yalanı indi
Ən xırda iynənin gözündən keçir.

Mən də yalançıyam, şeirim baş qatır,
Hələ demədiyim necə yalan var.
Mənim danışdığım yalan başqadır,
Yanında yalandır bütün yalanlar!

Yozun yalanımı, min yerə yozun,
Mənim yalanlarım yanan çıraqdı.
Şeirlər ən gözəl fikir tablosu-
Şairlər ən gözəl yalançılardı.

## ÜRƏYİMİN SİRR TƏRƏFİNDƏ...

Sənə adi olan mənə müqəddəs,
Gəl dolan ruhumun pir tərəfində.
Gecə də, gündüz də o ilahi səs
Gəzir düşüncəmin hər tərəfində.

Demirəm günəşsən, dövrəndə ayam,
Nə mənə bəxşişsən, nə sənə payam,
Mən sənin eşqinin zindanındayam,
Sən mənim eşqimin hürr tərəfində.

Toxunma, qəlbimə bir də toxunma!
Məni beləcə sev, bundan çox umma,
Dayan!!! Çıxa bilər yer öz oxundan,
Dayanma dünyanın bir tərəfində.

Özümü gözümdən sala bilərsən
Və yenə könlümü ala bilərsən.
Nə qədər istəsən, qala bilərsən –
Gəlib ürəyimin sirr tərəfində.

